

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 247 (21.657)

*27 dekabr 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Dekabrın 26-da Bakının Xəzər rayonunda Qala-Pirallahı avtomobil yolunun ikinci hissəsinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, uzunluğu 21,6 kilometr olan Qala-Pirallahı avtomobil yolunun tikintisi layihəsinin 7 kilometrlik ikinci hissəsinin yenidən qurulması işləri tamamlanıb.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsib.

Xatırladaq ki, yolun 4 hərəkət zolağından ibarət olan 14 kilometrlik hissəsi 2014-cü ilin oktyabr ayında istismara verilib. Yolun 6 hərəkət zolağından ibarət olan ikinci hissəsinin tikintisinə isə 2015-ci ildə başlanmışdı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da Bakı şəhəri Binə qəsəbəsinin Əli İsazadə küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olublar.

* * *

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Konqres Mərkəzinin qarşısında yeni salınmış istirahət parkının açılışında iştirak ediblər.

* * *

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış olub, Fəvvarələr Meydanı parkı, ictimai parkinq və piyada keçidi kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

## Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyəti genişləndirilir





Dekabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılmasının 5 illiyi münasibətilə tədbir keçirilmiş, mərkəzdə yaradılan yeni fondlara baxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin direktoru Şahin Əliyarov çıxış edərək demişdir ki, Naxçıvana həsr olunmuş materialların qorunub saxlanması, tədqiq və təbliğ olunması məqsədilə 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılmış və mərkəz 1089 adda 2307 nüsxə müxtəlif çap materialı ilə fəaliyyətə başlamışdır. Fəaliyyəti dövründə mərkəzin fondları Naxçıvanşünaslığa dair dəyərli kitab, jurnal, qəzet və digər çap materialları ilə zənginləşmişdir. Hazırda mərkəzin ümumi kitab fondunda 3769 nüsxə çap materialı vardır. Ötən dövr ərzində mərkəzin arxiv fondu da Naxçıvanşünaslığa dair arxiv materialları ilə daim zənginləşmişdir. Burada Naxçıvanın ictimai-siyasi, elmi-mədəni həyatını əks etdirən arxiv sənədləri, həmçinin Naxçıvanın tarixini, mədəniyyətini, coğrafiyasını, sosial-iqtisadi inkişafını əks etdirən jurnal və qəzet materialları, xəritə və atlaslar, albom və fotomateriallar, sənədli filmlər toplanmışdır. Hazırda arxiv fondunda 676 material mövcuddur. Şahin Əliyarov göstərilən diqqətə görə kollektiv adından minnətdarlıq etmiş, bundan sonra da səylə çalışacaqlarını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ali Məclisin kitabxanasının bazasında yaradılan Naxçıvanşünaslıq Mərkəzinin ötən 5 ildə səmərəli yol keçdiyini, mərkəzdə Naxçıvanla bağlı çap olunan kitabların toplanaraq təbliğ olunduğunu, müxtəlif tədbirlərin keçirildiyini, müzakirələrin və elmi tədqiqatların aparıldığını bildirmiş, bu münasibətlə kollektivə təşəkkür edərək demişdir: Naxçıvanşünaslıq Mərkəzinin yaradılmasında məqsəd qədim Azərbaycan torpağının tarixinə, mədəniyyətinə və təbiətinə aid kitabların, eləcə də Naxçıvanın qədim türk torpağı olduğunu təsdiq edən sənədlərin toplanması və təbliğini həyata keçirməkdən ibarətdir. Bu gün muxtar respublikada Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, ali, orta ixtisas və peşə təhsili müəssisələri fəaliyyət göstərir, müxtəlif sahələr üzrə tədqiqatlar aparılır, kitablar nəşr olunur, yeni sənədlər üzə çıxarılır, qərarlar qəbul olunur. Bu materialların bir mərkəzdə toplanması və təbliği vacib məsələdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin fəaliyyəti də məhz bu istiqamətdə qurulmuşdur.

Ali Məclisin Sədri demişdir: Naxçıvanın qədim tarixi və bu günü haqqında materialların toplanması və gələcək nəsillərə çatdırılması Naxçıvanşünaslıq Mərkəzinin qarşısında duran əsas vəzifədir. Mərkəzdə bu tədbirlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılmış, elektron oxu zalı və internet saytı istifadəyə verilmişdir. Muxtar respublikada fəaliyyət göstərən dövlət təşkilatları, elm və təhsil müəssisələri tərəfindən nəşr olunan kitablar, eləcə də digər sənədlər mərkəzdə onlar üçün yaradılmış fondlarda yerləşdirilir. Bu da elm, təhsil və yaradıcılıq təşkilatlarının illik fəaliyyəti haqqında dolğun məlumat almağa imkan verir. Ona görə də Naxçıvanşünaslıq Mərkəzinin formalaşmasında və işinin təşkilində muxtar respublikanın aid dövlət təşkilatları, elm və təhsil müəssisələri yaxından iştirak etməlidirlər. Naxçıvanşünaslıq Mərkəzi bundan sonra da alim və tədqiqatçılar üçün açıq olmalı, mərkəzdə toplanan kitab və digər çap məhsulları mütəmadi olaraq internet üzərindən təbliğ olunmalı və yayılmalıdır. Fəaliyyətin bu istiqamətdə qurulması Naxçıvanın tarixi, mədəniyyəti, təbiəti, müasir inkişafı və qədim Azərbaycan torpağı olması ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasına imkan verəcəkdir.

"Naxçıvan tarixinin tədqiq olunması, öyrənilməsi və təbliği eyni zamanda Azərbaycan tarixinin, elminin araşdırılması və öyrənilməsi deməkdir. Bu mənada Naxçıvanşünaslıq təkcə bir regionun deyil, ümumilikdə Azərbaycanın qədim tarixini, elmini, təbiətini, mədəniyyətini və yaradıcılıq sahələrini öyrənən və tədqiq edən mərkəzdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Naxçıvanşünaslıq Mərkəzi bundan sonra da aid dövlət orqanları, yaradıcılıq təşkilatları, elm və təhsil müəssisələri ilə qarşılıqlı fəaliyyət göstərməli, Naxçıvanla bağlı nəşr olunan kitablar burada toplanmalı və müzakirə olunmalı, geniş təbliğ edilməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirmiş, Naxçıvanşünaslıq Mərkəzində yaradılan yeni fondlara baxmış, mərkəzin fəaliyyəti ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Ali Məclis Sədrinin tapşırığına əsasən mərkəzdə dövlət orqanlarının, elmi müəssisələrin, ali və orta ixtisas təhsili müəssisələrinin və yaradıcılıq təşkilatlarının nəşrlərindən ibarət 4 yeni fond yaradılmışdır. Dövlət orqanları tərəfindən nəşr olunan çap materiallarının fondunda, ümumilikdə, 2332 çap materialı, elmi müəssisələrin nəşrlərindən ibarət fondda 582 çap materialı, ali və orta ixtisas təhsili müəssisələri tərəfindən nəşr olunan çap materiallarının fondunda 523 çap materialı, yaradıcılıq təşkilatları tərəfindən nəşr olunan çap materiallarının fondunda isə 332 nüsxə kitab vardır. Fondların hər birində kitablar təsnifatına uyğun olaraq yerləşdirilmiş, onların elektron variantı yaradılmışdır. Mərkəzin surətköçürmə otağında 1281 adda kitabın surəti köçürülərək elektron formatı yaradılmış və mərkəzin internet saytına daxil edilmişdir. İstifadəyə veriləndən bu günə qədər mərkəzin saytına 11 min 843 müraciət olmuşdur. Hazırda mərkəzin ümumi kitab fondundakı çap materiallarından 2802-si kitab, 29-u miniatür kitab, 694-ü jurnal, 104-ü avtoreferat, 65-i dərs proqramı və 75-i isə cildlənmiş qəzetlərdir. Ötən dövrdə mərkəzdə 231 açıq dərs keçirilmiş, dərslərdə 4571 dinləyici iştirak etmişdir. Hazırda mərkəzin qeydiyyat şöbəsində 740 oxucu qeydiyyatdadır.

Ali Məclisin Sədri fondların daha da zənginləşdirilməsi, burada toplanan kitabların və digər sənədlərin mərkəzin internet saytı vasitəsilə mütəmadi təbliğ olunması və gənclərin iştirakı ilə Naxçıvanşünaslığa aid açıq dərslərin keçirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Avtomobil Yolları Dövlət Şirkətində yubiley tədbiri keçirilib



***Naxçıvan Muxtar Respublikasında yol təsərrüfatında idarəetmə strukturunun yaradılmasının 30 illiyi münasibətilə tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin kollektivi əvvəlcə ümummilli liderimizin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Sonra tədbir Avtomobil Yolları Dövlət Şirkətində davam etdirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov qeyd edib ki, Azərbaycan SSR Avtomobil Yolları Təmiri və İstismarı Nazirliyinin 1986-cı il 25 dekabr tarixli əmri ilə Naxçıvan Avtomobil Yolları Təmiri və İstismarı İdarəsi fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1996-cı il 9 dekabr tarixli Fərmanına əsasən isə Naxçıvan Avtomobil Yolları Təmiri və İstismarı İdarəsinin bazasında Naxçıvan Avtomobil Yolları Dövlət Şirkəti yaradılıb. Ötən dövr yol təsərrüfatında çalışan işçilər üçün uğurlu olub. Naxçıvanda müasir yolnəqliyyat infrastrukturu yaradılıb. Asəf Məmmədov qazanılan uğurlara, əldə olunan nailiyyətlərə görə kollektivi təbrik edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov "Naxçıvanda müasir yol infrastrukturu yaradılır" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra əldə olunan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, yol-nəqliyyat kompleksinin də yenidən qurulmasına, müasir avtomobil yollarının çəkilişinə əlverişli şərait yaradıb. Hazırda bu istiqamətdə işlər ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ölkəmizdə, o cümlədən muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. Muxtar respublikanın yaşayış məntəqələrində – şəhər, qəsəbə və kəndlərdə avtomobil yolları yenidən qurulub.

Naxçıvan Muxtar Respublikası Böyük İpək Yolunun üzərində yerləşir. Ona görə də həyata keçirilən quruculuq tədbirləri zamanı yol tikintisinə, xüsusilə Böyük İpək Yolunun bərpasına diqqət yetirilir. Son illər uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək, uzunluğu 34 kilometr olan Naxçıvan-Culfa və uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları müasir tələblər səviyyəsində yenidən qurularaq istifadəyə verilib. Magistral avtomobil yollarının yenidən qurulması və Böyük İpək Yolunun bərpası Naxçıvanın tranzit imkanlarını xeyli artırıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib: ***"Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda da bu gözəl proseslər sürətlə gedir və həll olunur. Artıq burada yerli şirkətlər vardır ki, bu cür yolları çox keyfiyyətlə tikə bilirlər".***

Bildirilib ki, muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq 5 yaşayış məntəqəsini əhatə edən Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, 20 yaşayış məntəqəsini əhatə edən Çeşməbasar-Boyəhməd, 13 kəndi əhatə edən Hacıvar-Vayxır-Sirab və 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq istismara verilib.

"İqtisadi inkişafın başlıca şərtlərindən biri də yol infrastrukturunun yenidən qurulmasıdır. Muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi də yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinə, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olub", – deyən Bəhruz Əsgərov bildirib ki, son illər muxtar respublikamızda kəndlərarası və kənddaxili avtomobil yolları da daxil olmaqla salınan avtomobil yollarının həcmi sovet dövründə salınmış avtomobil yollarının həcmindən dəfələrlə çoxdur. Hər il payız-qış mövsümünə hazırlıqla əlaqədar həyata keçirilən kompleks tədbirlər muxtar respublikada mövcud olan 274 kilometr dövlət əhəmiyyətli və 1199 kilometr yerli əhəmiyyətli avtomobil yollarında qarlı-çovğunlu günlərdə belə, hərəkətin intensivliyini tam təmin edir.

Bu sahədə reallaşdırılan layihələrin əsas hədəfi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir. Bütün bu işlərdə isə avtomobil yol işçilərinin üzərinə mühüm vəzifələr düşür. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin kollektivi mövcud imkanlardan səmərəli istifadə edərək bundan sonra da muxtar respublikanın yol-nəqliyyat infrastrukturunun inkişafına öz töhfəsini verəcəkdir.

Məruzə ətrafında Ordubad Rayon Yol Təmir-İstismar İdarəsinin rəisi Müslüm Mehdiyev və Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin sektor müdiri Talıb Babayev çıxış ediblər.

Yubiley tədbirində "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 23 dekabr 2016-cı il tarixli Sərəncamı oxunub. Naxçıvan Muxtar Respublikasında yoltikinti sahəsində səmərəli fəaliyyətlərinə görə təltif olunanlara "Rəşadətli əməyə görə" nişanı və vəsiqələri təqdim edilib. Şirkətə istənilən hava şəraitində istər magistral, istərsə də ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarına nəzarət etmək imkanı olan, yüksək texniki göstəricilərə malik "Land-Rover" markalı xidməti avtomobil verilib.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə, yaradılan şəraitə və göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildiriblər.

✍ **Kərəm HƏSƏNOV**

## Muzey ziyarətləri davam etdirilir



***Qədim Naxçıvan diyarının tarixi, zəngin mədəniyyəti ilə tanışlıq məqsədilə muxtar respublikada fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının muzeylərə ekskursiyaları davam etdirilir.***

Dekabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşları Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyində olmuşlar. Məlumat verilmişdir ki, Azərbaycanın görkəmli dramaturqu və nasiri Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək üçün onun doğulduğu Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1998-ci il 19 iyun tarixli Sərəncam imzalamışdır. Muzeydə Cəlil Məmmədquluzadənin özünə və ailə üzvlərinə həsr olunmuş rəsm əsərləri, yaşadığı dövrə məxsus məişət əşyaları, ədibin qızı Münəvvər xanıma məxsus piano, hekayələri əsasında hazırlanmış panoramlar və maketlər nümayiş etdirilir. 2060 eksponatı özündə cəmləşdirən muzeyin ekspozisiyasında hazırda 273 ədəd eksponat nümayiş olunur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində, Ədliyyə, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Xatirə Muzeyində, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin, muxtar respublikanın Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyində, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar, Səhiyyə nazirliklərinin əməkdaşları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olmuşlar.

Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyini, Standartlaşdırma, Metrologiya və Patent, Ailə, Qadın və Uşaq Problemləri, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin kollektivləri Ədəbiyyat Muzeyini, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri Heydər Əliyev Muzeyini, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin, Dövlət Sosial Müdafiə Fondunun və Mərkəzi Seçki Komissiyasının əməkdaşları Dövlət Bayrağı Meydanı və Muzeyini, Dövlət Meliorasiya və Su Təsərrüfatı, Dövlət Statistika, Dövlət Televiziya və Radio Verilişləri komitələrinin, Televiziya və Radio Şurasının, "Şərq qapısı" qəzetinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, "Naxçıvanqaz" İstehsalat Birliyinin kollektivi "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksini ziyarət etmişlər.

Muzeylərə gələnlər həmin mədəniyyət müəssisələrinin yaradılması, fəaliyyəti, muzeylərdə nümayiş və mühafizə olunan eksponatlar barədə ətraflı məlumatlar almışlar.

Həmin gün muxtar respublikanın rayonlarındakı idarə, müəssisə və təşkilatların əməkdaşları da müvafiq olaraq rayon ərazisində yerləşən muzeyləri ziyarət etmişlər.

***Muzeylər keçmişimizi bu günə daşıyan, qoruyan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsidir. Yeni muzey şəbəkələrinin yaradılması, mövcud olanların ekspozisiyalarının daim zənginləşdirilməsi mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirməklə yanaşı, həm də muxtar respublikanın turizm potensialının artırılmasına xidmət edir. Muxtar respublika sakinlərinin maddi-mədəni irsimizin qorunmasında və təbliğində səylərini artırmaları, bu istiqamətdə həyata keçirilən tədbirlərdə fəallıq göstərmələri, əldə olunan maddi-mədəniyyət nümunələrini muzeylərimizə hədiyyə etmələri mədəniyyət müəssisələrinin qədim keçmişimizlə bu günümüz arasında oynadığı körpü rolunu daha da möhkəmləndirir.***

## Cəlil Məmmədquluzadənin ev-muzeyinə yeni eksponatlar təqdim olunub



Dekabrın 26-da Cəlil Məmmədquluzadənin ev-muzeyinə Naxçıvan şəhər sakini, təqaüdçü müəllim Rafiq Qasımov tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən, 1888-ci ilə aid, kənarları taxta və oyma işləməli bir ədəd güzgü, ayaqları oyma işləməli güzgü altlığı, eyni zamanda dairəvi taxta masa təqdim olunub.

Bununla əlaqədar Cəlil Məmmədquluzadənin ev-muzeyində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikasında 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Burada 112 mindən çox xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən maddi-mədəniyyət nümunələri mühafizə olunaraq qorunub saxlanılır.

Diqqətə çatdırılıb ki, son illər muzeylərimizi ziyarət edənlərin sayı əhəmiyyətli dərəcədə artıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən, muxtar respublikanın nazirlik, komitə və təşkilatları kollektivlərinin mütəşəkkil şəkildə muzeylərə gəlişləri təşkil olunur. Elə təkcə 2016-cı ilin ötən dövrü ərzində 28 min 925 tamaşaçı muzeyləri ziyarət edib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin də tariximizin və mədəniyyətimizin yaşadılması istiqamətində işini günün tələbləri səviyyəsində qurmağa çalışdığını qeyd edən nazir bildirib ki, son bir il ərzində Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi xüsusi diqqətdə saxlanılır və bu işdə muxtar respublika sakinləri bizə yaxından köməklik göstərirlər. Təkcə 2016-cı il ərzində muzeylərə 1500-ə yaxın yeni eksponat daxil olub ki, bu eksponatlar da vətəndaşlar tərəfindən könüllü şəkildə muzeylərə hədiyyə edilib. Bu tədbirlərin davamı olaraq bu gün Cəlil Məmmədquluzadənin ev-muzeyinə toplaşmışıq. Son illərdə, bütövlükdə, tariximizə, mədəniyyətimizə göstərilən dövlət qayğısının nəticəsidir ki, bu gün maddi-mədəniyyət nümunələrinin toplanması işində vətəndaşlarımız bu cür səy göstərirlər. Xalqımızın tarixini, mədəniyyətini qorumaq, əlbəttə ki, hər birimizin borcudur. Keçmişimizi, bu günümüzü qorumasaq, gələcək nəsillər üçün də heç bir iz qoya bilmərik.

Rafiq Qasımov çıxış edərək deyib ki, bu gün muzeylərin eksponatlarla zənginləşdirilməsi, yeni muzeylərin yaradılması istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilən tədbirlər minnətdarlıqla qarşılanır. Bu tədbirləri ürəkdən dəstəkləyən, alqışlayan muxtar respublika sakinləri mədəni irsimizin qorunmasına öz töhfələrini verməyə çalışırlar. Son vaxtlar qədim məişət əşyalarının muzeylərə təqdim edilməsi də bunu bir daha sübut edir. Rafiq Qasımov muxtar respublika sakinlərini maddi-mədəniyyət nümunələrinin toplanmasında daha da fəal iştirak etməyə dəvət edib.

Dəyərli tarixi əşyaları muzeyə təqdim etdiyinə görə kollektiv adından Rafiq Qasımova minnətdarlıq edən Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktoru Aytən Ələkbərova bildirib ki, tarixi eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Sonda tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

✍ **Rauf ƏLİYEV**

# Ordubadda növbəti humanitar aksiya

## Rayon Mərkəzi Xəstəxanasından reportaj

***Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı, müxtəlif profilli həkim heyəti müntəzəm olaraq muxtar respublikaya gəlir, paytaxt şəhərimizin səhiyyə müəssisələrində, rayon mərkəzlərindəki xəstəxanalarda humanitar aksiyalar təşkil olunur. Bu xeyirxah tədbir sakinlər tərəfindən böyük minnətdarlıq hissləri ilə qarşılanır. Növbəti humanitar aksiya dekabr ayının 23-26-da Ordubad rayonunda keçirilib.***



Aksiyanın ikinci günü həmin xəstəxanada olduq. Öyrənirik ki, aksiyada klinik xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 25 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edir.

Məlumat üçün bildirək ki,Telman İbadov uzun müddət bu xəstəxananın baş həkimi vəzifəsində çalışıb. Necə deyərlər, rayon səhiyyəsinin dünənini də görüb, bu gününü də görür. Onun dedikləri:

– Əvvəlcə onu bildirim ki, hər dəfə Naxçıvana gələndə burada səhiyyənin bir qədər də inkişafının şahidi oluram. Daha dəqiq desəm, bu gün Naxçıvan səhiyyəsi özünün tərəqqi dövrünü yaşayır. Daha naxçıvanlılar hər hansı müayinə və ya müalicə üçün başqa yerlərə üz tutmurlar. Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərində də səhiyyənin inkişafı diqqət mərkəzindədir. Bu gün muxtar respublikanın hər bir rayon Mərkəzi Xəstəxanası öz fəaliyyətini yeni və müasir binalarda davam etdirir. Bildiyimə görə, həmin xəstəxana binalarının əksəriyyətinin açılışında ölkə Prezidenti cənab İlham Əliyev iştirak edib, əhaliyə yüksək səviyyədə səhiyyə xidməti göstərmək üçün öz tövsiyələrini verib. Muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər, təbii ki, bir həkim kimi məni sevindirir. Səhiyyə müəssisələrinin hər cür avadanlıqlarla təchiz olunaraq maddi-texniki bazalarının gücləndirilməsi, ixtisaslı kadr hazırlığının diqqət mərkəzində saxlanılması bu günün reallıqlarıdır. Bir faktı nəzərinizə çatdırım. Bizim çalışdığımız xəstəxana ölkədə ən böyük səhiyyə müəssisələrindən biridir. Aksiya ərəfəsində mən Naxçıvan Muxtar Respublika Xəstəxanasında oldum. Burada gördüyüm avadanlıqlar tibbin son nailiyyətləridir və onların az qismi bizim xəstəxanada var. Naxçıvanlı ağxalatlıların bu texnologiyalardan mükəmməl istifadə etmələri diqqət mərkəzində saxlanılır, yerli həkimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə ciddi önəm verilir, biz də bu işdə öz köməyimizi əsirgəmirik. Ötən il ordubadlı bir həkim-laborant bizim xəstəxanada təcrübə keçib, gələn il 2 əməliyyat tibb bacısını da təcrübəyə cəlb edəcəyik. Məqsəd isə aydındır: insanlara yüksək səviyyədə səhiyyə xidməti göstərilsin. Bunun üçün həkimlərin yüksək peşəkarlığa malik olması vacib şərtlərdən biridir.

Baş həkim bildirir ki, aksiya çərçivəsində cərrahi, LOR, ginekoloji və uroloji sahələr üzrə cərrahi əməliyyatlar aparılır. Burada üzərində cərrahi əməliyyat aparılması mümkün olmayan xəstələr Bakıya dəvət edilir və pulsuz əməliyyat olunurlar.





Öyrənirik ki, heyətin tərkibində cərrahlardan Samir Aslanbəyli, Pənah Hüseynov, Toğrul Məhərrəmov, ginekoloq Zenfira İbadova, kardioloq Hüseynağa Sultanov, otolaringoloq Könül Bayramova, nevropatoloq Qabil Bayramov, allerqoloq Almaz İsgəndərova, endokrinoloq Tofiq Hacıyev və başqaları kimi öz ixtisasını dərindən bilən təcrübəli həkimlər var. Müayinə olunmaq üçün xəstəxanaya müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb. Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə əhaliyə tibbi xidmət göstərir.

Yüksəkixtisaslı heyət yerli həkimlərə tibbi avadanlıqların işləmə qaydalarını da öyrədirdi. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilirdi.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkimi İlham Seyidov deyir ki, insanların sağlamlığı keşiyində dayanan peşə sahibləri daim öyrənməyə can atmalıdırlar. Çünki digər sahələr kimi, səhiyyə sahəsində də hər gün yeniliklər baş verir, yeni tibbi avadanlıqlar istehsal edilir, müalicə üsulları meydana gəlir. Bu baxımdan Bakıdan gələn həmkarlarımızın təcrübələrindən yararlanmaq, yeni avadanlıqlarla işləmək vərdişlərini öyrənmək biz həkimlərin fəaliyyətində mühüm əhəmiyyət kəsb edir.

Telman İbadovla müayinə, müalicə və cərrahi əməliyyat aparılan palataları gəzirik. Vənənd kənd tam orta məktəbinin müəllimi Şahin Musazadə köhnə tanış kimi Telman həkimə yaxınlaşır, hal-əhval tutur, öz razılığını bildirir:

– Həkim heyətinin Ordubad rayonuna gəlməsi, burada humanitar aksiya keçirməsi bu gün səhiyyəmizdə gedən inkişaf və yeniliyin ifadəsi olmaqla, insana qayğının yüksək nümunəsidir. Bəzi xəstəliklər var ki, onların yerlərdə müalicəsi çətindir. Mərkəzdən gələn həkim heyətinin fəaliyyəti bu baxımdan təqdirəlayiqdir.

Aksiyada iştirak edən Ordubad rayonunun Tivi kənd sakini Aydın Dadaşov deyir ki, övladının cərrahi müdaxiləyə ehtiyacı var idi. Ordubad Rayon Mərkəzi Xəstəxanasında belə bir aksiya keçirilməsi onun əməliyyat olunmasına imkan verib. Aksiyanın ilk günü övladı üzərində cərrahi əməliyyat aparılıb. Palataya yerləşdirilən xəstə üçgünlük həkim nəzarətindən sonra evə buraxılacaq. Aydın Dadaşov belə xeyirxah aksiyaların təşkilatçılarına və icraçılarına minnətdarlığını bildirdi.

Ordubad şəhər sakinləri Həsənalı Möhsünov, Süreyya Nağıyeva, Nəsirvaz kənd sakini Dilbər Həsənova və başqaları da onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirdilər.

Aksiyanın sonuncu günü rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elmar Zeynalovla əlaqə saxladıq. Öyrəndik ki, 1291 nəfər ambulator müayinə ilə əhatə olunub. Aztəminatlı ailələrdən olan 14 uşaq üzərində fimoz əməliyyatı aparılıb. Cərrahi müdaxiləyə ehtiyacı olan 14 nəfər üzərində ümumi cərrahi, proktoloji, uroloji, burun-qulaq-boğaz və digər əməliyyatlar aparılıb. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıblar. Aksiya zamanı pasiyentlər həmçinin hematoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar.

Daha bir aksiya uğurla başa çatdı və bu xeyirxah tədbiri ordubadlılar yüksək qiymətləndirdilər. Onlar gördülər ki, insana, onun sağlamlığına qayğı dövlətimizin prioritet vəzifələri sırasındadır. Bu vəzifələr son illər muxtar respublikamızda yüksək səviyyədə yerinə yetirilir.

✍ Muxtar MƏMMƏDOV

# Muxtar respublikada rəsmi statistikanın inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində muxtar respublikanın inzibati ərazi dairələrində statistika uçotunun aparılması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan edilmiş müsabiqədən keçən şəxslərlə görüş keçirilib.***

Görüşdə çıxış edən komitənin sədri Kamal Cəfərov deyib ki, komitə əsas fəaliyyət istiqamətlərini, vəzifə və hüquqlarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 6 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun qurub.

Bildirilib ki, son dövrlər komitədə kadr potensialının və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində 2 yeni idarə – Naxçıvan Şəhər və Kəngərli Rayon Statistika idarələri yaradılıb, komitə aparatına yeni ştat vahidləri verilib. Ötən dövr ərzində komitənin aparatı və Naxçıvan Şəhər Statistika İdarəsi üçün yeni inzibati bina inşa olunub, Şərur, Kəngərli, Ordubad, Şahbuz və Sədərək Rayon Statistika idarələrində çalışan işçilərin iş şəraiti yaxşılaşdırılıb.

Naxçıvan Muxtar Respublikasının dinamik sosial-iqtisadi inkişafını, cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirən statistik göstəricilər sisteminin müasir standartlar səviyyəsinə çatdırılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 12 yanvar tarixli Sərəncamı ilə "2008-2012-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı" təsdiq olunub.

Kamal Cəfərov deyib ki, bu gün muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sosial sahənin inkişafı üzrə aparılan tədbirlərin genişmiqyaslılığı rəsmi statistikanın da davamlı qaydada təkmilləşdirilməsi zərurətini yaradıb. Məhz bu zərurət nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 1 iyun 2016-cı il tarixdə Sərəncam imzalanıb. Həmin sərəncamın icrası istiqamətində komitə aparatında İnzibati ərazilər üzrə məlumatların statistikası və təhlili şöbəsi, şəhər və rayon statistika idarələrində isə İnzibati ərazi dairələri üzrə məlumatların toplanması şöbələri fəaliyyətə başlayıb.

Vurğulanıb ki, inzibati ərazi dairələri üçün aktual statistik göstəriciləri özündə əks etdirən və beş bölmədən ibarət təsərrüfatbaşına kitab hazırlanıb. Təsərrüfatbaşına kitabın birinci bölməsində təsərrüfat üzvlərinin siyahısı, ikinci bölmədə təsərrüfatın xüsusi mülkiyyətində olan heyvanların, quşların və arı ailələrinin sayı, üçüncü bölmədə təsərrüfatın xüsusi mülkiyyətində və ya istifadəsində olan torpaq, dördüncü bölmədə təsərrüfatın xüsusi mülkiyyətində və ya istifadəsində olan kənd təsərrüfatı texnikası, beşinci bölmədə isə təsərrüfata məxsus tikililər qeyd olunub. Təsərrüfatbaşına kitabın işlənilməsinə dair göstərişlər hazırlanıb və işin normal aparılması üçün müvafiq izahlar verilib.

Komitə sədri diqqətə çatdırıb ki, bu gün keçirilən görüş və seminarla yanaşı, komitə aparatının aidiyyəti şəxslərinin iştirakı ilə şəhər və rayonlarda işçilərin peşə hazırlığı üzrə seminarlar təşkil olunacaqdır.

Tədbirdə komitə aparatının Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Məhərrəm Məmmədovun təsərrüfatbaşına kitaba əlavə edilmiş yeniliklər və işin mahiyyəti haqqında çıxışı olub.

Komitə aparatının İnzibati ərazilər üzrə məlumatların statistikası və təhlili şöbəsinin müdiri Əliheydər Qurbanlı təsərrüfatbaşına kitabın işlənilməsi haqqında tədbir iştirakçılarına slayd vasitəsilə geniş məlumat verib.

Tədbirə komitənin sədri Kamal Cəfərov yekun vuraraq qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasında statistika işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 1 iyun tarixli Sərəncamının icrası muxtar respublikada sosial-iqtisadi inkişafı və cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirən statistik göstəricilərin hazırlanmasına şərait yaratmaqla bərabər, Naxçıvanın gələcək inkişafı üzrə həyata keçiriləcək tədbirlərin istiqamətinin müəyyənləşdirilməsinə imkan verəcəkdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

# Gənclər mükafatlandırılıblar



***Şərur Rayon Olimpiya-İdman Kompleksində rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə rayonun ictimai həyatında və idman sahəsində fərqlənən yeniyetmə və gənclərin mükafatlandırılması mərasimi keçirilib.***

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov, Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev və Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin sədri Mirkərim Seyidov çıxış edərək muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətindən, bu siyasətin nəticəsi olan uğurlardan, gənclərin ictimai həyatdakı fəallıqlarından danışıblar. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında yaşayan gənclərin intellektual səviyyələrinin yüksəldilməsi, onların ixtisaslı mütəxəssislər kimi yetişməsi, dövlətimizə və dövlətçiliyimizə sədaqət ruhunda formalaşdırılması bu gün prioritet vəzifələr sırasındadır.

Vurğulanıb ki, gənclər onlara yaradılan imkanlardan səmərəli istifadə edir, muxtar respublikanın ictimai-siyasi həyatında öz sözlərini deyirlər. Bu gün gənclərin yüksək vəzifələrə irəli çəkilmələri onlara göstərilən etimadın ifadəsidir. Gənclər də bu etimadı doğrultmağa çalışırlar. Şərurlu gənclər də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində səylərini əsirgəmirlər. Bütün bunlar isə rayonun, muxtar respublikanın, nəticə etibarilə, ölkəmizin inkişafına gənclərin töhfəsi kimi dəyərləndirilməlidir.

Daha sonra tədbir musiqi nömrələri ilə davam edib.

Tədbirdə müxtəlif sahələrdə fərqlənən fəal gənclərə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin hədiyyələri təqdim olunub.

Analoji tədbirlər Şahbuz, Culfa, Kəngərli, Babək, Sədərək və Ordubad rayonlarında da keçirilib. Həmin bölgələrin fərqlənən gəncləri də nazirlik tərəfindən hədiyyələrlə mükafatlandırılıblar.

✍ Ceyhun MƏMMƏDOV

***Qarşıdan Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir. Bayram günlərində müxtəlif tədbirlər keçirilir, hər bir muxtar respublika sakini bu bayramı gözəl əhval-ruhiyyə ilə qarşılamağa çalışır. Mədəniyyət müəssisələrində və insanların bayram şənliyinə toplaşdığı yerlərdə Yeni il şənliklərinin keçirilməsi məqsədilə müvafiq hazırlıq işləri aparılır. Bu vaxt əsas şərtlərdən biri şənliklərin təşkili və keçirilməsi zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasıdır. Adi bir ehtiyatsızlıq xoşagəlməz hadisəyə, yanğının baş verməsinə səbəb ola bilər.***

## Yeni il bayramı tədbirləri zamanı yanğın təhlükəsizliyi qaydalarına əməl edək

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublika ərazisində Yeni il şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı yanğın təhlükəsizliyinin təmin olunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə tərtib olunmuş tədbirlər planına uyğun olaraq mədəniyyət, təhsil müəssisələrində və insanların bayram şənliyinə toplaşdığı yerlərdə maarifləndirmə tədbirləri həyata keçirilib. Fövqəladə Hallar Nazirliyi Yeni il tədbirlərinin keçirilməsi zamanı yanğın hadisələrinin baş verməməsi və xoşagəlməz hadisələrlə üzləşməmələri üçün vətəndaşlara yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət olunmasını tövsiyə edir.

Küknar ağacı möhkəm dayaq üzərində qurulmalı və ətrafında sərbəst hərəkət etmək üçün geniş məsafə saxlanılmalıdır. Küknar ağacı elektrik qurğularının quraşdırılması qaydalarına riayət olunmaqla işıqlandırılmalıdır. Elektrik cərəyanından istifadə edərkən tənzimləyicilərin vasitəsilə 12 voltluq gərginlikli lampalardan istifadə olunmalı, elektrik naqilləri və işıqlandırma lampaları saz olmalı və etibarlı izolyasiya edilməlidir. Şənliklər zamanı, adətən, bir neçə güclü elektrik şəbəkəsi həddindən artıq yüklənir və yanğın təhlükəsi yaranır. İşıqlandırmada nasazlıq hiss olunduqda, yəni naqillər qızdıqda, lampalar yanıb-söndükdə, qığılcım olduqda təcili onu elektrik şəbəkəsindən ayırmaq lazımdır.

Yeni il şənliyi keçirilərkən şamlardan, qığılcımsaçanlardan istifadə edilməsi, şam ağacının oyuncaqlarla, eləcə də pambıqla bəzədilməsi və işıqlandırılması qadağandır. Yeni il şənlikləri keçirilərkən azyaşlı uşaqlara qızdırıcı və yaxud işıqlandırıcı cihazlardan istifadə edilməsi qadağan olunmalıdır. Yadda saxlamaq lazımdır ki, bir elektrik uzadıcısına bir neçə elektrik cihazı qoşularsa həmin xətt artıq yüklənir və yanğın təhlükəsi yaranır. Bayram şənlikləri keçirilən otaqların elektrik xətlərinin izolyasiyası saz vəziyyətdə olmalıdır. Küknar ağacının yanında rəngbərəng lampaların yandığı zaman azyaşlı uşaqları valideynlərin nəzarətindən kənarda saxlamaq olmaz. Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Yanar şamın nəzarətsiz qoyulması xoşagəlməz hadisələrin baş verməsinə gətirib çıxara bilər. Uşaq bağçalarının və mədəniyyət ocaqlarının rəhbərləri bilməlidirlər ki, küknar ağacları qurulan otaqlardan xaricə iki sərbəst çıxış yolu olmalıdır və həmin çıxışların qapıları mütləq çıxış istiqamətinə açılmalıdır. Çıxış qapılarının qarşısına kənar əşyalar yığılmamalıdır.



Yeni il tədbirləri və şənlikləri keçirilən yerlərdə yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədilə həmin yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir. Bayram şənliklərinin keçirilməsi nəzərdə tutulan zallarda və otaqlarda siqaret çəkmək, zalın keçidlərinə stul qoymaq, köçürmə çıxış qapılarını bağlamaq və otağa təyin olunmuş normadan artıq adam yerləşdirmək qadağandır. Yaşayış evlərində küknar ağacı soba və başqa qızdırıcı cihazlardan aralı məsafədə möhkəm özül üzərində quraşdırılmalıdır. Uşaqlarının istəyini nəzərə alan valideynlər evlərində küknar ağacı qururlar. Bu zaman onlar mütləq qaydada yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməlidirlər. Yolka şənlikləri zamanı ən çox yanğınlar uşaqların dəcəlliyindən baş verir. Ona görə də Yeni il şənlikləri keçirilərkən kiçikyaşlı uşaqları xüsusilə nəzarətdə saxlamaq lazımdır. Onlara qızdırıcı və işıqlandırıcı cihazlardan istifadə etmək qadağan olunmalıdır.

*Qeyd olunanlarla bağlı baş verə biləcək xoşagəlməz hadisələrin vaxtında qarşısının alınması üçün vətəndaşlarımız diqqətli olmalı, təhlükəsizlik məsələlərində fəal iştirak etməli və belə hallarla üzləşdikdə dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** xidmətinə məlumat verməlidirlər.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

## Növbəti test-sınaq imtahanı

***Dekabrın 25-də muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan IX-XI sinif şagirdlərinin bilik və bacarıqlarının yoxlanılması məqsədilə növbəti test-sınaq imtahanı keçirilib.***

Şagirdlərin elmin sirlərini mənimsəməsində buraxdıqları nöqsanları müəyyənləşdirmək məqsədi daşıyan test-sınaq imtahanında şagirdlərə dörd qrup üzrə beş fəndən 125 sual olan kitabçalar təqdim edilib. Həmin qruplar üzrə üç fəndən 12 açıqtipli test tapşırığı verilib. V ixtisas qrupunu seçmiş IX sinif şagirdlərinə 2 fənn üzrə (ana dili və riyaziyyat) 60 sual, XI sinif şagirdlərinə isə 3 fənn üzrə (ana dili, riyaziyyat və xarici dil) 90 sual təqdim olunub. Sualların cavablandırılması üçün iştirakçılara 150 dəqiqə vaxt ayrılıb. Muxtar respublikanın bütün ümumtəhsil məktəblərində imtahanlar saat 10[00]-da başlayıb.

Test-sınaq imtahanlarının nəticələrini şagirdlər onlara verilmiş iş nömrəsi vasitəsilə *www.istedad21.com* saytından öyrənə bilərlər.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 23 yanvar 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15%) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Babək rayonunun Güznüt kəndində "Pircuvar" Kooperativinə məxsus 0,95 hektar torpaq sahəsində yerləşən 1964,53 kv.m ümumi, 1500,53 kv.m əsas, 464,0 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi və 0,2141 hektar torpaq sahəsində yerləşən 4 girişli, 307,85 kv.m əsas sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası | Babək rayonu, Güznüt kəndi | 420.000 | 357.000 | 21.000 |
| 2. | 0,1395 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 40,86 kv.m yaşayış, 81,88 kv.m qeyri-yaşayış, 40,26 kv.m köməkçi sahədən ibarət 2 otaqlı fərdi yaşayış evi | Babək rayonu, Aşağı Uzunoba kəndi | 39.000 | – | 1.950 |
| 3. | 14,3 kv.m qeyri-yaşayış sahəsi | Naxçıvan şəhəri, "Əlincə" məhəlləsi, bina 2[B], 1-ci mərtəbə | 28.000 | – | 1.400 |
| 4. | 0,0756 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 58,32 kv.m yaşayış, 49,08 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 20.000 | – | 1.000 |
| 5. | 0,1271 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 51,2 kv.m yaşayış, 17,7 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Yeni Kərki kəndi | 10.000 | – | 500 |
| 6. | 0,0446 hektar torpaq sahəsində yerləşən, ümumi sahəsi 95,7 kv.m olan, 49,0 kv.m əsas, 46,7 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsi (Sığorta Kommersiya Şirkəti) | Naxçıvan şəhəri, Nizami küçəsi, bina 41, 2-ci mərtəbə | 5.000 | – | 250 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh "Kapital Bank" Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ87AİİB45090249443100007500 və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun AZ61 NABZ12380900000000202944 nömrəli hesabına 19 yanvar 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:
- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
-*hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 23 yanvar 2017-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Güləş birinciliyi keçirilib

***Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə yeniyetmələr (2000-2002-ci illər təvəllüdlülər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək idmançıları qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edib. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov idmançılara uğurlar arzulayıb.

Birincilikdə 10 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı mübarizə aparıb. Yarışın yekununa əsasən, Hüseyn Əhmədli, Rasim Həsənov, Turqut Abdullayev, Sahil İsmayılov, Bəhlul Əsgərli, Orxan Ələkbərov, Altay Zeynalov, Qoca Əhmədov, Musa Mehdiyev və Nail Nuriyev müvafiq olaraq 42, 46, 50, 54, 58, 63, 69, 76, 84 və 100 kiloqram çəki dərəcələrində birinci yerlərə layiq görülüblər.

Hər çəki dərəcəsində yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Yoldaşlıq görüşündə *"Naxçıvan"* və *"Lokomotiv"* komandaları qarşılaşıb

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə basketbol üzrə yoldaşlıq görüşü keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi görüşdə "Naxçıvan" və "Lokomotiv" komandaları üz-üzə gəliblər.

Oyundan öncə çıxış edən federasiyanın sədr müavini Ənvər Məmmədov idmanda əldə olunan nailiyyətlər barədə geniş məlumat verib və iştirakçıları bayram münasibətilə təbrik edib.

Daha üstün oyun sərgiləyən "Naxçıvan" komandası meydanı 41:38 hesablı qələbə ilə tərk edib.

Sonda hər iki komandanın basketbolçuları təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Elan

2016-cı il dekabrın 29-dan Naxçıvan-Təbriz-Tehran-Məşhəd və əks-istiqamətdə beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayacaqdır. Sərnişin qatarı həftənin dördüncü və bazar günləri fəaliyyət göstərəcəkdir.

İlk sərnişin qatarı dekabrın 29-da saat 11[00]-da Naxçıvan dəmiryol vağzalından yola düşəcəkdir. Biletləri Naxçıvan və Culfa dəmiryol vağzallarının kassalarından əldə etmək olar.

Sizə xoş və rahat səyahət arzulayırıq.

***Əlaqə nömrələri:***
***Naxçıvan dəmiryol vağzalı – 554-38-11***
***Culfa dəmiryol vağzalı – 546-07-50***

### İtmişdir

Kəngərli rayonunun Xok kənd sakini Seyidov Mirpənah Mirismayıl oğlunun adına verilmiş JN-963[A/B] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qarabağlar kənd sakini Həsənov Hüseyn Məhəmməd oğlunun adına olan 513[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 970